Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 76 (1204) 22 aprel - 23 aprel 2016-cı il

# UĞURLARIN ÜNVANI GÖYÇAY

**Bugünkü Azərbaycan reallığının yaxşı nümunələrindən olan Göyçay rayonu və bu bölgənin kəndləri demək olar ki, zamanın nəbzinə uyğun bir şəkildə tikilir, abadlaşır və özünün yeniləşən həm iqtisadi, həm də mədəni həyatı ilə insanların zövqünü oxşayır. Üstəlik bu bölgədə həyata keçirilən hər bir iş adamların sosial vəziyyətinin yaxşılaşmasına, ailə büdcəsinin möhkəmlənməsinə, eyni zamanda hər bir fərdin bazar zənbilinin təmin olunmasına xidmət edir. Demək olar ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə rayonda adambaşına hər nəfərə görə ümumdaxili məhsul daha da artmışdır. Bu da öz-özlüyündə baş vermir. Bunun arxasında həm dövlətin gücü, onun iqtisadi proqramı, həm də Azərbaycan insanının əməyi dayanır.**

**"... Bu gün Azərbaycan təkcə neft ölkəsi deyil, bü gün Azərbaycan həm də kənd təsərrüfatı, sənaye ölkəsidi. Bizim kifayət qədər təbii, iqtisadi sərvətlərimiz, gücümüz, imkanlarımız var. Çalışmalıyıq ki, bundan sonra da qeyri-neft sektorunu daha da geniş əhatədə, daha böyük sürətlə inkişaf etdirib Azərbaycanın nemətlərini təkcə özümüzün, ölkəmizin bazarlarında deyil, həm də dünya bazarlarına çıxaraq".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



Artım göstəricisi özündə başqa məqamı da əks etdirir. Yəni həmin artım nəticəsində Göyçayda çalışan əmək adamının orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə daha da artmışdır. Bunun özü də insanların güzəranının yaxşılaşdığını göstərən bir sübutdur.

Təqdim etdiyimiz, daha doğrusu, araşdırmağa maraq göstərdiyimiz bu rəqəmlərin arxasında Göyçay rayon icra hakimiyyətinin başçısı Mübariz Ağayevin komandası və yerli sahibkarlar, iş adamları, eləcə də bu uğurları qazanmaq üçün hazırlanmış proqramlar dayanır. Birmənalı şəkildə ifadə etmək olar ki, son illərdə Göyçayda bütün sahələr, o cümlədən də aqrar sahə, ticarət və xidmət sahələri, tikinti-quraşdırma, büdcə maliyyə, bank, sosial müdafiə və məşğulluq sahələri də planlı şəkildə, həm də paralel olaraq inkişaf etdirilir.

Yuxarıda qeyd etdiyimiz məsələlər Göyçay rayon İcra Hakimiyyətində 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş yığıncaqda da geniş müzakirə olunmuşdur.

Tədbirdə çıxış edən Göyçay rayon icra hakimiyyətinin başçısı Mübariz Ağayev bildirmişdir ki, 2016-cı ilin birinci rübündə rayonun sosial-iqtisadi inkişafında bir sıra uğurlar əldə edilmiş, iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 52,4 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 10,9 milyon manat və ya 26,3 faiz çoxdur. Ötən müddət ərzində 9,8 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bunun da 84,1 faizi qeyri-dövlət bölməsinin payına düşür. Rayonun aqrar sahəsində daha ciddi uğurlar əldə edilmiş, 2016-cı ilin məhsulu üçün 13880 hektar sahədə taxıl əkilmişdir. Heyvandarlıq sahəsi daha da inkişaf etmiş, 01 aprel 2016-cı il tarixə rayonun fərdi təsərrüfatlarında iri buynuzlu mal-qaranın sayı 48469, xırda buynuzlu heyvanların sayı 68467 baş olmuşdur ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən müvafiq olaraq 0,7 faiz və 1,8 faiz çoxdur. Keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 2,5 faiz, süd istehsalı 1,1 faiz, yumurta istehsalı 4,3 faiz artmışdır.

M.Ağayev vurğulamışdır ki, ölkə Prezidentinin torpaq sahiblərinə yaratdığı münbit şərait aqrar sahənin canlanmasına səbəb olmuş, hazırda rayonun bütün kənd yaşayış məntəqələrində faraş tərəvəz istehsalının artırılması üçün güclü iş aparılır ki, bu da kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsinə imkan vermişdir. Aparılmış ilkin təhlillə müəyyən edilmişdir ki, hazırda rayonun kəndlərində 4 minə yaxın təsərrüfatda kənd əməkçiləri ümumi sahəsi 304 min kv.m. olan istixanalarda faraş tərəvəz məhsulu yetişdirirlər və yetişdirilmiş ilk məhsul artıq bazarlara çıxarılır. İstixanalarda görülən işləri maliyyələşdirmək üçün kənd əməkçiləri 7 milyon manatdan artıq vəsait sərf etmişlər. Hazırda istilikxanalarda 15 mindən artıq kənd sakini məhsul becərir.

Onun sözlərinə görə, bütövlükdə kənd təsərrüfatının ümumi məhsulunun həcmi ötən 3 ay ərzində 12,1 milyon manat təşkil etmişdir ki, bu da 2015-ci ilin müvafiq dövrünə nisbətən 10 faiz çoxdur. 2016-cı ilin birinci rübündə iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 6,4 milyon manat vəsait yönəldilmişdir. Rayon iqtisadiyyatına yönəldilmiş investisiyaların 94,5 faizi istehsal təyinatlı obyektlərin inşasında istifadə edilmişdir. Rayon əhalisinin həyat səviyyəsi də xeyli yüksəlmiş, ötən ilin müvafiq dövrünə nisbətən pərakəndə əmtəə dövriyyəsi 4,8 faiz, pulu xidmətlərin həcmi 2,5 faiz artmışdır. Hesabat dövründə rayon büdcəsinin mədaxil hissəsinə 105,7 faiz, o cümlədən yerli gəlirlər üzrə proqnoza 105,5 faiz, rayon büdcəsinin məxaric hissəsinə 93,7 faiz əməl edilmişdir.

Cari ildə şəhər və kənd əhalisinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Göyçay şəhərinin su təchizatı sisteminin yenidənqurulması layihəsi tam başa çatdırılmış və şəhərin bütün ərazisinə yeni su mənbəyindən içməli su verilməsi təmin edilmişdir. Hazırda rayonun Şəhadət kəndində çirkab sularını təmizləyən qurğu kompleksinin tikintisi işləri aparılır. Rayonun içməli su mənbəyi olmayan Qəbələ-Müskürlü, Mallı-şıxlı, Veysəlli, Şıxəmir, Kürdşaban və Qaraman kəndlərində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli su təmizləyici qurğuların tikintisi aparılır. Daha 12 kənddə belə qurğuların tikilməsi üçün müvafiq torpaq sahələri ayrılmışdır.



**(ardı gələn sayımızda)**

***Şamxal ŞƏBİYEV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ